

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

*Qəzet 1921-ci ildən çıxır*

# ŞƏRQ qapısı


Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 64 (21.474)

9 aprel 2016-cı il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiymәti 20 qәpik


## Rəsmi xronika

Aprelin 8-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ölkəmizdə rəsmi səfərdə olan Rusiya Federasiyası Hökumətinin Sədri Dmitri Medvedev ilə təkbətək görüşü olub.

Təkbətək görüş başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Rusiya Federasiyası Hökumətinin Sədri Dmitri Medvedevin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olub.

Geniş tərkibdə görüş başa çatdıqdan sonra Azərbaycan Prezidenti İlham Əliyev və Rusiya Hökumətinin Sədri Dmitri Medvedev mətbuata bəyanatlarla çıxış ediblər.

Aprelin 8-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından ölkəmizdə rəsmi səfərdə olan Rusiya Federasiyası Hökumətinin Sədri Dmitri Medvedevin şərəfinə nahar verilib.

* * *

Aprelin 8-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Bakı Ekspo Mərkəzində "AITF-2016" XV Azərbaycan Beynəlxalq turizm və səyahətlər və "HOREX Caucasus-2016" X Qafqaz Beynəlxalq mehmanxana, restoran və supermarketlər üçün avadanlıq və ləvazimatlar sərgiləri ilə tanış olublar.



## Gömrük sərhədini keçən avtonəqliyyat vasitələrinin icbari sığortası Yaşıl Kart sistemi ilə həyata keçirilir

***"İcbari sığortalar haqqında" Azərbaycan Respublikası Qanununa edilmiş müvafiq dəyişikliklərə əsasən, cari ildən ölkəmizdə Yaşıl Kart sistemi tətbiq olunur. Yaşıl Kart sistemi avtonəqliyyat vasitəsi sahiblərinin icbari sığortalanması sahəsində yenilikdir. Belə ki, dövlət qeydiyyatında olan bütün nəqliyyat vasitələri müvəqqəti olaraq xarici ölkə ərazisinə aparılarkən onun sahibinin mülki məsuliyyəti Yaşıl Kart sistemi üzrə sığortalanır.***

Azərbaycana məxsus avtonəqliyyat vasitələrinin bu sığorta növü ilə sığortalanması sistemin qüvvədə olduğu xarici ölkələrdə əlavə sığortahaqqının ödənilməməsinə zəmanət verir. Başqa sözlə, Azərbaycan Yaşıl Kartı beynəlxalq icbari sığorta müqaviləsi hesab olunur.

Yeni sistemin tətbiqi öz avtomobili ilə xaricə gedənlərin, o cümlədən ölkəmizə gələn xarici dövlətlərin avtonəqliyyat vasitəsi sahiblərinin işini xeyli sadələşdirməklə yanaşı, sərhəd-keçid məntəqələrində əlavə vaxt itkisinin də qarşısını almış olur. İndi xarici avtonəqliyyat vasitələri Azərbaycan Respublikası ərazisinə daxil olarkən sürücü tərəfindən Yaşıl Kart təqdim olunduqda, sərhəd sığorta müqaviləsi bağlanmadan buraxılış həyata keçirilir.

Qeyd edək ki, Yaşıl Kart sistemi avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin sığortası şəhadətnaməsinin bu sistemin iştirakçıları, yəni üzv ölkələr arasında qarşılıqlı tanınması haqqında sazişdir. Hal-hazırda sistemə üzv olan ölkələrin sayı 48-dir. Azərbaycana qonşu ölkələr, o cümlədən bütün Avropa ölkələri də bu sistemin üzvüdür.

Yuxarıda da qeyd olunduğu kimi, sistemin əsas məqsədi mülki məsuliyyəti sığortalanmış avtonəqliyyat vasitəsi sahiblərinin səyahət etdikləri üzv ölkələrdə törətdikləri yol-nəqliyyat hadisələri nəticəsində vurulan zərərin əvəzinin ödənilməsini təmin etməkdən ibarətdir. Nəticə etibarilə, Yaşıl Kart əldə edən avtonəqliyyat vasitəsi sahibi üzv ölkələrdə sığorta tələbindən azad edilməklə səfər çərçivəsində mülki məsuliyyətini tam sığortalamış olur.

Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyi ilə əldə olunmuş razılaşmaya əsasən, indi muxtar respublikanın sərhəd-keçid məntəqələrində Yaşıl Kartın rəsmiləşdirilməsi gömrük əməkdaşları tərəfindən onlayn şəkildə həyata keçirilir. Naxçıvan Muxtar Respublikasından İran İslam Respublikası, Türkiyə Respublikası və digər üzv ölkələrə gedən və Azərbaycan Yaşıl Kartı olan avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyəti sığorta müqaviləsinin qüvvədə olduğu müddət çərçivəsində təkrar sığortalanmaya cəlb olunmur. Yeni Azərbaycan Yaşıl Kartı bu sistemə üzv olan bütün ölkələrdə "yaşıl işıq"dır. Qeyd edək ki, Yaşıl Kart şəxsin mülki məsuliyyətinin icbari sığorta şəhadətnaməsi əsasında verilir. Bir, üç, altı və on iki ay müddətinə bağlanılan müqavilələr əsasında əldə olunan Azərbaycan Yaşıl Kartı mülki məsuliyyətin sığortalanmasına dair xarici ölkələrdə bağlanılan sərhəd sığorta müqavilələrindən sərfəlidir.

## Gömrük sistemində elektron bəyanetmə tətbiq olunur

***Elektron gömrük xidmətlərinin daha da genişləndirilməsi məqsədilə Azərbaycan Respublikasının Gömrük Məcəlləsində nəzərdə tutulmuş bütün bəyannamələrin elektron formada qəbulunun pilot layihəsinin həyata keçirilməsinə başlanılıb.***

Yeni elektron bəyanetmə sistemi gömrük sərhədindən keçirilən malların və nəqliyyat vasitələrinin gömrük orqanlarına bəyan edilməsi ilə bağlı prosedurların sadələşdirilməsi, gömrük xidmətlərinin göstərilməsində şəffaflığın təmin edilməsi, sahibkarlar üçün əlverişli biznes mühitinin yaradılması və xarici ticarətin daha da stimullaşdırılmasına xidmət edir.

Bu sistemin tətbiqi gömrük rəsmiləşdirilməsinə dair bütün prosedurların bir gömrük əməkdaşı tərəfindən yerinə yetirilməsinə imkan verir. Bu isə gömrük rəsmiləşdirilməsi prosesini tamamilə sadələşdirməklə vaxt itkisini minimuma endirmiş olur. Yeni elektron bəyanetmə sistemi pilot layihə çərçivəsində ilkin olaraq gömrük təmsilçiliyi institutu çərçivəsində həyata keçirilir. Bunda əsas məqsəd bəyanetmə prosedurlarında səhvə yol verilməsinin və digər qanunvericilik aktlarının tələblərinin pozulmasının qarşısının alınmasından və bu istiqamətdə sahibkarlara dəstək verilməsindən ibarətdir.

Bu məqsədlə muxtar respublikamızda "Naxçıvanterminalkompleks" Birliyinin nəzdində fəaliyyət göstərən gömrük təmsilçilərinə elektron imzalar alınıb, onların bu sahədəki fəaliyyəti təmin olunub.

Türkiyə təcrübəsi olan yeni elektron bəyanetmə sistemi gömrük orqanları tərəfindən risk amilinin düzgün müəyyən olunması baxımından da mühüm baza rolunu oynayacaqdır.

Qeyd edək ki, elektron bəyanetmə sistemi Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin rəsmi internet portalı üzərindən *(www.dgk.nmr.az)* həyata keçirilir. Gələcəkdə bəyanetmə prosesinin birbaşa xarici iqtisadi fəaliyyət iştirakçılarının özləri tərəfindən yerinə yetirilməsi üçün də işlər görülür.

***Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin mətbuat xidməti***

## Lisey üçün yataqxana binasında inşaat işləri sürətlə aparılır

***Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 14 aprel 2015-ci il tarixli Sərəncamına əsasən yaradılan Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Lisey üçün yataqxana binasının inşası davam etdirilir.***





240 şagird yerlik, zirzəmi ilə birlikdə beşmərtəbəli yataqxana binasının dam örtüyü vurulub, arakəsmələrin hörgüsü başa çatdırılıb. Hazırda binanın fasadında və interyerində suvaq işləri gedir, kommunikasiya xətləri çəkilir.

Məlumat üçün bildirək ki, ötən müddətdə Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Liseyin tədris binasında yenidənqurma işləri aparılıb. Zirzəmi ilə birlikdə 5 mərtəbədən ibarət olan lisey binasının yenidən qurulmasını "Gəmiqaya" Məhdud Məsuliyyətli Cəmiyyətinin inşaatçıları reallaşdırıblar. Burada aparılan yenidənqurma işləri zamanı binanın fasadında üzləmə işləri həyata keçirilib, interyer müasir tələblər səviyyəsində dizayn edilib, kommunikasiya xətləri yenilənib, binanın həyəti abadlaşdırılıb, müasir işıqlandırma sistemləri quraşdırılıb, lisey ən müasir avadanlıqlarla təchiz edilib.

Qeyd edək ki, Şərur şəhərində təhsil sahəsində aparılan quruculuq işləri bununla məhdudlaşmayıb. Belə ki, şəhər 2 nömrəli tam orta məktəbin əvvəlki ikimərtəbəli binası müasir tələblərə cavab vermədiyindən bu məktəb üçün yeni bina inşa edilir. Hazırda obyektdə hörgü və suvaq işləri aparılır. Bu quruculuq tədbirini də "Gəmiqaya" Məhdud Məsuliyyətli Cəmiyyətinin inşaatçıları həyata keçirirlər. Təhsil ocağının binasında elektron lövhəli siniflər, kimya, biologiya və fizika laboratoriyaları, hərbi kabinə, kompüter, şahmat və müəllimlər otaqları, kitabxana, bufet və idman zalı yaradılacaq. Kitabxanada internet vasitəsilə digər elektron kitabxanalara da müraciət etmək mümkün olacaq. Kompüter otağında hər biri internetə qoşulmuş kompüter dəstləri quraşdırılacaq. Məktəbdə yaradılan fənn laboratoriyaları da müasir tədris-təcrübə avadanlıqları ilə təmin ediləcək.

✍ **Səbuhi HÜSEYNOV**

## Dövlət proqramının uğurlu icrası aqrar sahənin də inkişafına şərait yaradır

***Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 1 sentyabr tarixli Fərmanı ilə "Naxçıvan Muxtar Respublikasının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" qəbul olunub. Muxtar respublikamızın sosial-iqtisadi inkişafına mühüm təsiri olan bu dövlət sənədində aqrar sahənin də inkişaf etdirilməsi üçün ciddi vəzifələr qarşıya qoyulub.***

Dövlət proqramının icrasından keçən müddət ərzində aqrar sahədə görülmüş işlərlə bağlı Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyindən aldığımız məlumatda bildirilir ki, muxtar respublikada əhalinin ilboyu keyfiyyətli yerli ərzaq məhsulları ilə təmin olunması məqsədilə son iki il ərzində ümumi tutumu 1903 ton olan 5 müxtəliftutumlu soyuducu və digər ərzaq məhsullarının saxlanılması üçün anbar istifadəyə verilib. Həmçinin daxili bazarın mövsümi tərəvəz məhsulları ilə təminatının yaxşılaşdırılması üçün istixana komplekslərinin genişləndirilməsi məqsədilə 12 istixana təsərrüfatının yaradılmasına 923 min 700 manat, 16 heyvandarlıq təsərrüfatının yaradılmasına 30 milyon 376 min 200 manat həcmində dövlət maliyyə dəstəyi göstərilib.

Aqrar sahədə həyata keçirilən mühüm tədbirlərdən biri də muxtar respublikada məhsuldar və keyfiyyətli toxum növləri istehsalının stimullaşdırılması məqsədilə toxumçuluq təsərrüfatlarının maddi-texniki bazasının möhkəmləndirilməsi olub. Bu məqsədlə Naxçıvan şəhərində toxumçuluq təsərrüfatı üçün yeni kompleksin inşası və ümumi tutumu 30 min ton olan "Bərəkət" toxumçuluq təsərrüfatının yaradılması istiqamətində işlər davam etdirilib. Muxtar respublikamızın əsas toxumçuluq bazası olacaq bu kompleksdə taxılla yanaşı, digər bitki toxumlarının satışının da həyata keçirilməsi nəzərdə tutulub. Məlumatda o da bildirilir ki, hazırda muxtar respublikada 5 toxumçuluq təsərrüfatı fəaliyyət göstərməkdədir.

Əkinçilikdən yaxşı nəticələr əldə olunması üçün məhsul istehsalçılarının müasir texnika və mineral gübrələrlə vaxtında təchiz edilməsi zəruridir. Bu məqsədlə "Naxçıvan Aqrolizinq" ASC-nin rayon bazalarının balansına kifayət qədər kənd təsərrüfatı texnikaları verilib və həmin texnikaların saxlanması və təmiri üçün çardaqlar və emalatxanalar tikilib. Təkcə 2014-2015-ci illərdə "Naxçıvan Aqrolizinq" ASC tərəfindən 447 ədəd müxtəlif təyinatlı kənd təsərrüfatı texnikası alınaraq muxtar respublikamıza gətirilib. Həmçinin məhsul istehsalçıları 9 min 892 ton mineral gübrə ilə təmin olunub.

Görülmüş işlərin təhlili onu deməyə əsas verir ki, dövlət proqramının uğurlu icrası gələcəkdə muxtar respublikamızda kənd təsərrüfatının inkişafı üçün etibarlı zəmin yaradacaq.

✍ **Əli CABBAROV**

## Daha bir yaşayış məntəqəsi müasirliyə qovuşub

### *Babək rayonunun Yarımca kəndindən reportaj*

***– Yarımca kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyin tərkibində Badaşqan kəndi də var. 2188 nəfər sakini olan kəndlər Naxçıvan şəhərinin lap yaxınlığında yerləşir. Buna baxmayaraq, sovet dönəmində həmin yaşayış məntəqələrində gözəgələn tikinti-quruculuq tədbirləri aparılmayıb. Kənddə olan dövlət qurumları pərakəndə şəkildə fəaliyyət göstəriblər. Muxtar respublikada quruculuq tədbirlərinə başlanılanda inanırdıq ki, Yarımcada da belə tədbirlər həyata keçiriləcək, – bu sözləri Yarımca kənd inzibati ərazi dairəsi üzrə nümayəndə Əfqan Qənbərov deyir.***



Onunla söhbətimiz kənddə istifadəyə verilən bir neçə obyektin açılış mərasiminin ertəsi günü oldu. Hiss etmək çətin deyildi ki, həm icra nümayəndəsi, həm kənd sakinləri hələ də yeni obyektlərin açılış sevincini yaşayırlar. Torpaq mülkiyyətçisi Məhərrəm İsmayılov deyir ki, paytaxt şəhərinə yaxın olan bir ünvanda yaşasaq da, müəyyən çətinliklərimiz var idi. Düşünürdüm ki, ucqar dağ kəndləri belə, müasirləşdirilir, nə üçün Yarımcada belə tədbirlər görülmür? Deməli, hər şeyin öz vaxtı var. İndi fikirləşirəm ki, ucqar ünvanlarda yaşayan insanların həyat səviyyəsini yaxşılaşdırmaq daha vacibdir. Artıq bu gün Yarımca da müasir kəndə çevrilib. Məktəb, həkim ambulatoriyası, kənd və xidmət mərkəzləri istifadəmizə verilib. Onu deyim ki, ömrüm boyu torpaqda çalışmışam. İndi də çalışıram. Dövlətimizin yaratdığı şəraitdən istifadə edərək ailəmlə birlikdə bizə verilən pay torpaq sahəsində əkinçiliklə məşğul olur, yaşayış səviyyəmizi yaxşılaşdırırıq. Ötən ilin payızında 50 hektar sahədə taxıl əkmişəm. Yaxşı da cücərti alınıb. Bu il də yüksək məhsuldarlığa nail olacağam. Bir neçə texnikam var. Həmin texnikaları son illərdə öz zəhmətimlə almışam. Bunun üçün dövlətimizə minnətdaram. Həm ona görə ki, dövlətimizin diqqət və qayğısı sayəsində kəndimiz müasir yaşayış məntəqəsinə çevrilib, həm də kənd sakinlərinin problemləri həll edilib, onların təsərrüfatın müxtəlif sahələrində çalışmalarına, məhsul bolluğu yaratmalarına şərait yaradılıb.

Kəndin girəcəyində gözoxşayan 2 binadan biri kənd mərkəzi, digəri həkim ambulatoriyasıdır. Həkim ambulatoriyasına baş çəkirik. Ambulatoriyanın lap yaxınlığındakı evdə yaşayan 88 yaşlı yarımcalı Əfruz Babayeva ilə həmsöhbət oluruq. Bu el ağbirçəyi sovet dönəmində kəndin kolxozunda çalışıb. Barama becərib, tərəvəz yetişdirib. Hələ o vaxt ailəsinin əkdiyi tutluq indi də durur. Əfruz nənə deyir ki, elə bil cavanlaşmışam. Bir kənddə bu qədər iş görmək kiçik məsələ deyil. Nəvələrim, bilirsinizmi, öz məktəblərindən necə razılıqla danışırlar? Mən də deyirəm ki, tikilənlərin qədrini bilin, müəllimlərinizin sözünə qulaq asın, dərslərinizi yaxşı oxuyun. Bu gün oxumaq zəmanəsidir. Sizə də yaxşı oxumaq üçün şərait yaradılıb. Bizim dövrümüzdə belə şərait yox idi. Bütün bunlar kənd adamlarına dövlətimizin ən böyük hədiyyəsidir.

Həkim ambulatoriyasının baş həkimi Şəfahət Bağışov, feldşer Sədaqət Həsənova və ambulatoriyanın digər işçiləri onlara belə şərait yaradıldığı üçün razılıqlarını bildirdilər. Dünənə qədər darısqal və uyğunlaşdırılmış bir binada fəaliyyət göstərdiklərini xatırlatdılar. Yeni obyektin onların kənd camaatına daha yüksək səviyyədə tibbi xidmət göstərməyə imkan verəcəyini dilə gətirdilər. Biz də, öz növbəmizdə, ambulatoriyanın kollektivinə bu şərəfli işdə uğurlar arzuladıq.

Yolumuzu xidmət mərkəzindən salırıq. Mərkəzin qarşısında görüşdüyümüz torpaq mülkiyyətçisi Akif Rasimov, Nizami Hüseynov və başqaları ilə həmsöhbət oluruq. Kənd adamlarının dövlətimizə, dövlətçiliyimizə sədaqətini onların söhbətlərindən hiss etmək çətin deyil. Akif Rüstəmov deyir ki, yarımcalılar bütün bunları ölkəmizdə, onun ayrılmaz tərkib hissəsi olan muxtar respublikamızda insan amilinə, onun layiq olduğu səviyyədə yaşamasına göstərilən qayğı kimi dəyərləndirir:

– Muxtar respublikamız sürətlə inkişaf edir. Bunu hamımız görürük. Kəndlərimizin belə abadlaşdırılması da bu inkişafın nəticəsidir. İnkişaf olan yerdə insanların qurub-yaratmaq əzmi də yüksəlir. Bu inkişafın nəticəsidir ki, bir neçə il əvvəl kəndlərimizdə ya bir məktəb binası, ya həkim ambulatoriyası inşa olunurdusa, indi kompleks quruculuq işləri aparılır. Sevinirik ki, Yarımcada da bu işlər başa çatıb. Yollarımıza asfalt döşənib. Rabitə, elektrik və qaz xətləri yenidən çəkilib. Bu isə həm də məişət şəraitimizi yaxşılaşdırıb. Bunun üçün hər bir yarımcalı dövlətimizə minnətdarlıq edir.

– Yarımcalılar torpağa bağlı adamlardır, – bu sözləri Nizami Hüseynov deyir. Bildirir ki, hər il kənd sakinləri həyətyanı və pay torpaq sahələrindən xeyli qazanc əldə edirlər. Bunun üçün onlara hərtərəfli şərait yaradılıb. Kənd adamları kreditlərlə, keyfiyyətli toxumla, gübrələrlə təmin olunurlar. Kənddə çoxlu yeni texnikalar var. Onların hamısını yarımcalılar öz zəhmətləri ilə alıblar. Yəni kənd adamlarının çəkdikləri zəhmət hədər getmir, dövlətimiz tərəfindən dəyərləndirilir...

* * *

– Yarımcada məktəb binası əsaslı yenidən qurulmuşdur. Bu gün məktəbdə 222 şagird təhsil alır. İstifadəyə verilən yeni bina 342 şagird yerlikdir. Bu isə o deməkdir ki, bir neçə onillik üçün Yarımca kəndində məktəb binasının böyüdülməsinə ehtiyac olmayacaq, – deyən icra nümayəndəsi Əfqan Qənbərov bizə məktəbə də baş çəkməyi məsləhət görür. Məktəbdə şaqraq uşaq səsləri hakimdir. Məktəblilərin istifadəsinə verilən yeni bina onların hədsiz sevincinə səbəb olub. Rayon mərkəzlərində tikilən məktəblərdən seçilməyən Yarımca kənd tam orta məktəbinin müəllimləri Cəmalə Məmmədova, Siddiqə Quliyeva, Sədaqət Quliyeva, Ulduz Seyidova onlara yaradılmış bu şəraiti muxtar respublikada təhsilin inkişafına göstərilən qayğı kimi dəyərləndirirlər. Belə qayğının onların məsuliyyət hissini daha da artırdığını dilə gətirirlər.

Məktəbin direktoru Şərəbanı Əliyeva müəllimlərin öz vəzifə borclarına bundan sonra da layiqincə yanaşacaqlarına əminliyini vurğulayır. Deyir ki, bu gün bütün müəllimlərin qarşısında mühüm vəzifələr durur. Muxtar respublikanın qədim tarixini, mədəniyyətini, bugünkü inkişaf səviyyəsini şagirdlərimizə aşılamaq, onları vətənpərvər ruhda, dövlətimizə, dövlətçiliyimizə sədaqət prinsipləri əsasında tərbiyə etmək şərəfli və məsuliyyətli bir işdir. Məktəbin açılışında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun dediyi kimi: ***"Yarımca kənd tam orta məktəbi müasir təhsilin tələbləri səviyyəsindədir. Kollektiv yaradılan şəraitdən səmərəli istifadə etməli, təhsilli və vətənpərvər gənclər hazırlanmalıdır. Gənclər o zaman dövləti və xalqı üçün yararlı olur ki, onlar təhsilli və vətənpərvər böyüdülsünlər. Ölkəmiz bu gün müharibə şəraitindədir. Torpaqlarımız işğal olunub, şəhidlər veririk. Ona görə də məktəb təhsil verməklə yanaşı, həm də vətənpərvər gənclik yetişdirməlidir. Məktəbi bitirən hər bir şagird gələcəkdə harada işləməsindən asılı olmayaraq, vətənpərvər olmalı, ölkəmizə xidmət etməlidir".***

*Biz də inanırıq ki, Yarımca kəndində istifadəyə verilən obyektlərdə çalışanlar yaradılan şərait müqabilində qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsində fəallıq göstərəcək, onlar göstərilən qayğıya əməli işləri ilə cavab verəcək, muxtar respublikamızın inkişafı üçün var-qüvvələrini səfərbər edəcəklər.*

✍ **Muxtar MƏMMƏDOV**

## Şahbuz rayonunda emal sənayesini daha da genişləndirmək olar

***Bölgələrdə yeni iş yerlərinin yaradılması və iqtisadiyyatın şaxələndirilməsi muxtar respublikamızda həyata keçirilən iqtisadi siyasətin əsas istiqamətlərindən biridir. Təbii və mineral ehtiyatlarla zəngin olan Şahbuz rayonunda kiçik sahibkarlığın inkişafı məqsədilə yaradılan istehsal və emal müəssisələri muxtar respublikamızda daxili bazarın yerli məhsullarla təmin olunması üçün böyük əhəmiyyət daşıyırlar.***

Dükan və marketlərdə hər gün çox sayda müştərinin aldığı "Çınqıllı" və "Böyrək" suları, "Farma Şah" əmtəə nişanı ilə satılan, minbir dərdin dərmanı olan təbii dərman bitkiləri, muxtar respublikamızın daxili bazarının yerli yumurtaya olan tələbatının əsas hissəsini ödəyən "Badamlı Broyler" quşçuluq təsərrüfatı və digər emal-istehsal müəssisələri bunlar arasındadır.

Şahbuz rayonunun iqtisadiyyatının əsasını kənd təsərrüfatı təşkil edir. Burada ev təsərrüfatlarında istehsal olunan yüksəkkeyfiyyətli qovurmanın, kərə yağının, pendirin, balın, meyvə kompotlarının, mürəbbələrin dadı-tamı təkcə Naxçıvanda deyil, ölkəmizin paytaxtında da yaxşı tanınır. Bununla yanaşı, Şahbuzda forel balığı yetişdirilməsi, yerli xammal əsasında kərpic istehsalı və lavaşbişirmə müəssisələri də fəaliyyət göstərir. Şahbuzun ekoloji təmiz mineral və süfrə suları öz şöhrəti ilə hər yerdə tanınır. Keçili kəndində 2007-ci ildən fəaliyyət göstərən "Çınqıllı Bulaq" MMC dövlətin kredit dəstəyi ilə işə başlamışdır. Aylıq orta hesabla 8 min litr su qablaşdırılan müəssisədə 7 nəfər daimi işlə təmin olunmuşdur. 0,5, 1, 5, 10 və 19 litrlik taralarda muxtar respublikamızın hər yerinə satışa göndərilən "Çınqıllı" suyu Bakı şəhərində də özünə xeyli alıcı tapmışdır. İlin isti dövrlərində, xüsusən yay fəslində bu suya, eləcə də "Böyrək" suyuna tələbat xeyli çoxalır.

Badamlı qəsəbəsində sahibkar Elşad Məmmədova məxsus broyler müəssisəsi 2000-ci ildən fəaliyyət göstərir. Müəssisə dövlət kredit dəstəyi ilə işə başlamış, qısa müddət ərzində daxili tələbatı ödəmək üçün yumurta istehsalı üzrə ixtisaslaşmışdır. Müəssisədə olarkən öyrəndik ki, iş prosesi tamamilə avtomatlaşdırılmış bu müəssisənin istehsal gücü gündəlik olaraq 36-38 min yumurtadır. Hazırda bazara gündəlik 24 mindən çox yumurta çıxarılır.

Şahbuzda fəaliyyət göstərən maraqlı bir istehsal sahəsi İşgəsu massivində yerləşən forel balığı yetişdirmə müəssisəsidir. Hazırda 5 nəfərin daimi işlə təmin olunduğu bu müəssisə 2005-ci ildə dövlət kredit dəstəyi ilə işə başlamışdır. Bu müddətdə müəssisənin uğurları çox olmuşdur. Belə ki, təkcə cari ilin ilk iki ayı ərzində burada 42 min manatlıq məhsul istehsal edilmişdir. Yetişdirilən təzə balığın paketlənmiş şəkildə və Şahbuz şəhərindəki ticarət məntəqəsindəki hovuzlarda canlı satışı təşkil olunmuşdur. Müəssisədə olarkən sahibkar Nurlan Xəlilov bildirdi ki, müəssisənin istehsal etdiyi məhsulların konservləşdirilməsi və onların muxtar respublikadan kənarda da satışının təşkili nəzərdə tutulmuşdur.

"Farma Şah" dərman bitkilərinin istehsalı üzrə Şahbuz rayonunda fəaliyyət göstərən unikal müəssisələrdən biridir. Şübhəsiz, Şahbuzun bənzərsiz təbiəti və təbii sərvətləri arasında dərman bitkilərinin xüsusi əhəmiyyəti vardır. Elmi məlumatlara əsasən, Şahbuz dağları, xüsusən Dərələyəz silsiləsinin cənub yamacları dərman bitkilərinin növ tərkibinə görə təkcə Qafqazda deyil, bütün Avropada ilk yeri tutur. Buranın yerli əhalisi arasında da dərman bitkilərindən müalicə məqsədilə istifadə geniş yayılmışdır. 2010-cu ildən fəaliyyətə başlayan "Farma Şah" müəssisəsi Şahbuz dağlarında yabanı halda bitən qiymətli dərman bitkilərinin emalı və paketlənməsi ilə məşğuldur. Səkkiz nəfərin daimi işlə təmin olunduğu bu müəssisədə 49 adda 60 çeşiddən çox dərman bitkiləri paketlənir. Birdəfəlik dəmləmə, kapsul, bəkməz və 40 qramlıq paketlər şəklində qablaşdırılan minbir dərdin dərmanı olan bu məhsullara Naxçıvanın və Bakının marketlərində ilboyu böyük tələbat vardır. Gündəlik istehsal gücü 800 qutudan artıq olan "Farma Şah" bu tələbi ödəmək üçün növbəti mövsümə ciddi hazırlaşır.

Şahbuz rayonu aqrar rayon olsa da, burada emal sənayesinin müxtəlif sahələri üçün geniş imkanlar vardır. Bu gün rayonda xammal şəklində istehsal edilən kənd təsərrüfatı məhsulları çox da mürəkkəb olmayan bir emal prosesindən keçdikdən sonra geniş istehlakçı kütləsinə çatdırıla bilər. Şahbuzlu sahibkarlar kiçik sahibkarlığa verilən dövlət dəstəyindən faydalanmaqla yaratdıqları kiçik biznes sahəsində emal olunmuş süd və ət məhsullarını, meyvə konservləri və mürəbbələri muxtar respublikamızın və ölkəmizin hər yerində satışa çıxara bilərlər. Nəyə görə Kükünün alması, Biçənəyin balı, Badamlının badamı adıyla tanındığı halda, Şahbuz qatığı, qovurması muxtar respublikamızın, ölkəmizin marketlərində satılmasın? Bəzən düşünəndə ki, apteklərdə baha qiymətə satılan həmərsin yağının, yemişan çiçəyinin xammalı hər il yüz tonlarla Şahbuz dağlarında, kənd həyətlərində özü ərsəyə gəlir, onda bu fikirlərə olan əminliyimiz daha da artır. Bəli, şübhə yoxdur ki, muxtar respublikamızda həyata keçirilən tədbirlər daxili bazarın qorunması və kiçik sahibkarlığa verilən yüksək dövlət dəstəyi ilə gələcəkdə daha çox sayda və müxtəlif məhsul növləri üzrə emal və istehsal sahələri yaradılacaqdır. Şahbuzun həm təbii, həm də iqtisadi imkanları buna imkan verir.

✍ **Əli CABBAROV**

## Naxçıvan Şəhər Prokurorluğu hüquqi-maarifləndirmə tədbiri keçirib

*Dünən Naxçıvan Şəhər Prokurorluğunun təşkilatçılığı ilə Qaraçuq Kənd Mərkəzində vətəndaşların müraciətləri haqqında qanuna və yeni qəbul olunmuş İnzibati Xətalar Məcəlləsinə edilmiş əlavə və dəyişikliklərlə bağlı maarifləndirici tədbir keçirilib.*

Tədbiri Naxçıvan Şəhər İcra Hakimiyyətinin şöbə müdiri İsmayıl Gülməmmədov açıb, tədbirin mahiyyəti barədə iştirakçılara məlumat verib.

Naxçıvan şəhər prokurorunun böyük köməkçisi, I dərəcəli hüquqşünas Sərxan Novruzov "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikası Qanunu barədə ətraflı məlumat verib.



Bildirilib ki, "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikasının 2015-ci il 30 sentyabr tarixli Qanunu müasir dövrün tələblərinə və beynəlxalq hüququn normalarına uyğun olaraq yeni müddəalarla zənginləşdirilib, ilk növbədə, vətəndaşların müraciətlərinə baxılmasında tələbkarlığın artırılmasına, Azərbaycan Respublikası Konstitusiyasının 57-ci maddəsinə, həmçinin 94-cü maddəsinin 1-ci bəndinə uyğun olaraq "Konstitusiyada təsbit edilmiş insan və vətəndaş hüquqlarından və azadlıqlarından istifadə, bu hüquqların və azadlıqların dövlət təminatı"nın daha etibarlı surətdə həyata keçirilməsinə yönəldilib.

Dövlət orqanları, həmçinin ictimai təşkilatlar və özəl qurumlarla vətəndaşlar arasında münasibətlərin tənzimlənməsində yeni dövr açan bu qanunun əvvəlki redaksiyasından fərqli cəhətləri çoxdur. "Normativ hüquqi aktlar haqqında" Konstitusiya Qanununa uyğun olaraq, bu bəndlər və yarımbəndlərin hər biri qanunun müvafiq maddəsi hesab olunur. Yeni qanunda cəmiyyətin bütün strukturlarında, o cümlədən dövlət və bələdiyyə orqanlarında, dövlət və ya bələdiyyə mülkiyyətində olan və ya paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə və ya bələdiyyəyə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında, bir sözlə, müraciətə baxan subyektlərdə vətəndaşların müraciətlərinə baxılması prinsipləri və şərtləri, formaları, müddətləri və digər xüsusiyyətləri öz əksini tapıb.

"Azərbaycan Respublikasının yeni qəbul olunmuş bu qanunu ölkə Prezidentinin vətəndaşlara göstərdiyi böyük qayğı və diqqətin yeni təzahürüdür", – deyən Sərxan Novruzov qanunun ayrı-ayrı maddələri barədə sakinlərə ətraflı məlumat verib.

Sonra Naxçıvan şəhər prokurorunun köməkçisi Abdulla Quliyev "Yeni qəbul olunmuş İnzibati Xətalar Məcəlləsinin mahiyyəti və İnzibati Xətalar Məcəlləsində prokuror nəzarəti" mövzusunda çıxış edib.

Sonda tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

✍ **Kərəm HƏSƏNOV**

## “Molla Nəsrəddin” – 110

*Məlum olduğu kimi, böyük demokrat yazıçı və görkəmli ictimai xadim Cəlil Məmmədquluzadənin (1869-1932) redaktorluğu ilə iyirmi beş il ərzində fəaliyyətini Tiflisdə, Təbrizdə və Bakıda davam etdirən məşhur “Molla Nəsrəddin” jurnalı ilə Azərbaycanda milli satirik mətbuatın və tənqidi-realist ədəbiyyatın əsası qoyulmuşdur. Geniş mənada türk-müsəlman dünyasının birinci satira jurnalı kimi “Molla Nəsrəddin” Şərq ölkələrində satirik mətbuatın və ədəbiyyatın, demokratik ictimai fikrin inkişafına ciddi təkan vermişdir. Şərq aləminə satira günəşi ilk dəfə “Molla Nəsrəddin”dən doğmuşdur. Şərqin oyanışı, dirçəlişi və istiqlalı uğrunda geniş, sistemli və ardıcıl mübarizə “Molla Nəsrəddin” jurnalı ilə başlamışdır.*



# “Molla Nəsrəddin” ədəbi məktəbi və mollanəsrəddinçilik

“Molla Nəsrəddin” jurnalı Azərbaycanda və türk-müsəlman dünyasında milli azadlıq və müstəqillik uğrunda mübarizənin ədəbiyyatda və mətbuatdakı sərkərdəsidir. Bu mübariz jurnal istiqlal hərəkatına mütəşəkkil, nizamlı bir ordudan çox xidmət göstərmişdir. “Molla Nəsrəddin” jurnalı milli dirçəliş ideyalarından və mübarizlik ruhundan yoğrulmuş mənalı istiqlal kitabıdır. “Molla Nəsrəddin” jurnalı milli dövlətçilik uğrundakı istiqlal davasının əsas hərəkətverici qüvvələrindən biri və həmin mübariz yürüşün lokomotividir. Azərbaycana, türk-müsəlman dünyasına və Qafqaza istiqlal məfkurəsinin, demokratiya ab-havasının ən zəruri və şərəfli yükünü “Molla Nəsrəddin” qatarı çəkib gətirmişdir.

Türk-müsəlman dünyasında da demokratik mətbuatın bayraqdarı “Molla Nəsrəddin”dir. Vətən, millət, ana dili idealı, söz azadlığı, çoxpartiyalı sistem, cümhuriyyət anlayışı ilə bağlı böyük və ümummilli ideyaları mətbuata və ədəbiyyata da bu jurnal gətirmişdir. “Molla Nəsrəddin” jurnalı təkcə Azərbaycanda yox, Şərqdə demokratik mətbuatın babasıdır.

Azərbaycan ədəbiyyatının və mətbuatının tarixində “Molla Nəsrəddin” jurnalı xüsusi ədəbi məktəb yaratmış ilk mətbuat orqanıdır. Digər ədəbi məktəblərdən fərqli olaraq, “Molla Nəsrəddin” ədəbi məktəbi əksər yaradıcılıq istiqamətlərini və janrları, ictimai fikri, hətta rəssamlıq sənətini də özündə cəmləşdirir. Özündən əvvəl və sonra yaranmış heç bir ədəbi məktəb “Molla Nəsrəddin” ədəbi məktəbi qədər çox yazıçını, şairi və rəssamı öz ətrafında birləşdirə bilməmişdir. Cəlil Məmmədquluzadənin ardıcıl və böyük səyi sayəsində XX əsrin əvvəllərində Azərbaycan yaradıcı ziyalılarının “Molla Nəsrəddin” ordusu formalaşmışdır. Bu mübariz, demokratik və milli ziyalı ordusunun baş komandanı görkəmli Azərbaycan yazıçısı Mirzə Cəlil Məmmədquluzadə idi. Böyük mollanəsrəddinçi yazıçı Əbdürrəhim bəy Haqverdiyevin vaxtilə etiraf etdiyi kimi, bu ədəbi cəbhədə təb və istedad yaradıcı qüvvələrin özlərinə məxsus olsa da, “mövzu verən və yol göstərən” Cəlil Məmmədquluzadə və “Molla Nəsrəddin” jurnalı idi. Geniş mənada “Molla Nəsrəddin” jurnalı tənqidi-realist ədəbiyyatın möhkəm ədəbi cəbhəsi, mollanəsrəddinçi ədiblərin əsərlərinin çoxcildlik külliyyatıdır.

Bu jurnala qədər Azərbaycanda və Şərqdə yalnız görkəmli sənətkarların adı ilə bağlı olan ədəbi məktəblər mövcud idi. Nizami ədəbi məktəbi, Füzuli, Nəvai, Mirzə Fətəli Axundzadə ədəbi məktəbləri... Amma “Molla Nəsrəddin”in timsalında ilk dəfə idi ki, konkret bir mətbuat orqanı əsasında müstəqil ədəbi məktəb formalaşmışdı. Bu, təkcə Azərbaycanda deyil, ümumən türk-müsəlman dünyasında ayrıca bir mətbuat orqanının adı ilə əlaqədar olan birinci ədəbi məktəb idi. “Molla Nəsrəddin” jurnalı “Füyuzat” ədəbi məktəbinin də meydana çıxmasında ədəbiyyat və mətbuat dünyasındakı rəqabət zəminində formalaşmışdı. Heç şübhəsiz, “Molla Nəsrəddin”in ədəbi məktəb mərtəbəsinə çatdırılması bu jurnalın yaradıcısı Cəlil Məmmədquluzadənin təşkilatçılıq bacarığının və xüsusi ədəbi məharətinin nəticəsində mümkün olmuşdu. Əslində, Cəlil Məmmədquluzadə Azərbaycandakı Şərqyönlü milli inkişaf meyilləri ilə Qərb maarifçiliyini sintez halında çulğaşdırmaqla yeni tipli ədəbiyyat və mətbuat yaratmağa müvəffəq olmuşdu ki, bu da tez bir zamanda öz ətrafına çoxlu sayda tərəfdarlar və pərəstişkarlar toplaya bilmişdi.

Əvvəla, böyük demokrat ədib Cəlil Məmmədquluzadənin “Molla Nəsrəddin” jurnalının proqramını müəyyən etməsi mollanəsrəddinçi ədəbiyyatın və milli mətbuatın konsepsiyasının işlənib hazırlanması demək idi. “Molla Nəsrəddin” jurnalının birinci sayında gedən materiallar yeni ədəbi məktəbin əsas prinsiplərini özündə cəmləşdirən proqram xarakterə malik olan sənət örnəkləridir. Bu sayda baş məqalə kimi təqdim olunan “Sizi deyib gəlmişəm” məqaləsi “Molla Nəsrəddin” jurnalının və eyni adlı ədəbi məktəbin manifestidir. “Molla Nəsrəddin” ədəbi məktəbi üçün səciyyəvi olan müsəlman qardaşlara üz tutmağın bəyan olunması, kiçik adamın mətbuata və ədəbiyyata gətirilməsinin zəruriliyinin əsaslandırılması, tənqid hədəflərinin konkret müəyyən edilməsi, ümummilli mövqeyin meydana qoyulması, açıq ana dilində yazmağın vacibliyinin önə çəkilməsi “Sizi deyib gəlmişəm” məqaləsində öz əksini tapmışdır. Cəlil Məmmədquluzadənin “həqiqi Molla Nəsrəddin” şairini axtarmaq üçün çap etdirdiyi “Lisan bəlası” şeiri sanki “Molla Nəsrəddin” şeir məktəbi üçün müsabiqə xarakterli elannamə idi. Vaxtilə Cəlil Məmmədquluzadənin yazdığı kimi, “Lisan bəlası” şeiri *“bir nümunə idi ki, bunu birinci nömrədə çap etməklə biz həqiqi “Molla Nəsrəddin” şairini axtarırdıq. Biz Sabiri və Məşədi Sicimqulunu axtarırdıq. Bir tərəfdən, birinci nömrəmizi şeir babətindən yarımçıq buraxmaq istəmirdik. Və digər tərəfdən də Sabirin və Məşədi Sicimqulunun dünyada varlığından xəbərdar deyildik”.*

Jurnalın birinci nömrəsinin üz qabığında Cəlil Məmmədquluzadənin sifarişi əsasında alman rəssamı Oskar Şmerlinqin çəkdiyi “Müsəlman dünyasının oyanışı” adlı nadir karikatura mollanəsrəddinçi karikaturaçılıq sənətinin mükəmməl proqramı idi. İlk saydan etibarən yol göstərmək, istiqamət vermək, təsvir etmək üçün düşünülüb tapılmış, kəşf edilmiş “Molla Nəsrəddin”in teleqramları”, “atalar sözü”, “poçt qutusu”, “bilməli xəbərlər” kimi yeni janrlar sonralar uzun illər boyu mollanəsrəddinçi publisistikanın əsas, aparıcı janrlarına çevrilmişdir. Nəhayət, Cəlil Məmmədquluzadənin “Molla Nəsrəddin”in ilk sayında çap etdirdiyi “Dəllək” adlı kiçik hekayəsi bir daha yeni nəsr modelinə örnək kimi diqqətə çatdırılmışdı. Bundan başqa, Cəlil Məmmədquluzadə “Molla Nəsrəddin” jurnalında dərc etdirdiyi “Poçt qutusu” yazıları ilə ədəbi qüvvələri yönləndirmiş və formalaşdırmışdır. “Poçt qutusu” yazılarında böyük ədib gələcək mollanəsrəddinçilərin, yeni ədəbi nəslin müəllimi səviyyəsində çıxış edir. “Poçt qutusu” bölməsindəki təlimat xarakterli tapşırıqlar və tövsiyələr “Molla Nəsrəddin” ədəbi məktəbinin ədəbi dərsləridir. Müşahidə olunan cəhətlərdən biri də bundan ibarətdir ki, Cəlil Məmmədquluzadə mollanəsrəddinçi ədəbiyyatın formalaşdırılması prosesində hətta tanınmış, təcrübəli yazıçılara, “Molla Nəsrəddin”in dostlarına və köməkçilərinə də güzəştə getməmiş, həmişə tələbkar münasibət bəsləmişdir. Jurnalın “Poçt qutusu” mətnlərində adları çəkilənlər XX əsrin əvvəlləri Azərbaycan ədəbiyyatının tanınmış yaradıcıları Əbunəsir Şeybani – Mirzə Ələkbər Sabir, Dabanıçatdaq xala – Əli Razi Şamçızadə, Yetim cücə – Əli Məhzun, Şairimiz – Əli Nəzmi, Cüvəllağı – Əliqulu Qəmküsar, Millət dostları – Əbdürrəhim bəy Haqverdiyev, Palanduz – Salman Mümtaz, Yeni dastançı – Məhəmmədəli Sabit idi.

Nəhayət, etiraf etmək lazımdır ki, Cəlil Məmmədquluzadənin bənzərsiz bədii əsərləri də həm “Molla Nəsrəddin” dövrü Azərbaycan ədəbiyyatı, həm də ümumən ədəbiyyatımız üçün örnək sayılmağa tam layiq olan dəyərli ədəbi nümunələrdir. Ədəbiyyatımıza və mətbuatımıza kiçik hekayəni və kiçik adamı, tragikomediyanı və satirik publisistikanı, felyeton janrını, “açıq ana dili” üslubunu və Azərbaycançılıq məfkurəsini, cümhuriyyət anlayışını gətirmiş Mirzə Cəlil Məmmədquluzadə ədəbi-ictimai fikrimizin Molla Nəsrəddin dövrünün yaradıcısıdır. Haqlı olaraq müasirləri onu daha geniş mənada “ədəbi dövrün başçısı” (Yusif Vəzir Çəmənzəminli) kimi də dəyərləndirmişlər. Başçılıq etdiyi jurnalın ətrafına toplayıb vahid ədəbi cəbhədə birləşdirdiyi, eyni məfkurəyə və üsluba yönləndirdiyi yazıçı və şairlər, publisistlər və karikaturaçılarla Cəlil Məmmədquluzadə “Molla Nəsrəddin” ədəbi məktəbini formalaşdırmağa müvəffəq olmuşdur. Mollanəsrəddinçi sənətkarlardan hər biri bu ədəbi məktəbin daha da zənginləşməsinə və yetkinləşməsinə özünün layiqli əlavələrini etmiş, xidmət göstərmişlər. Nəticədə, Azərbaycan ictimai-bədii fikrinin çoxəsrlik tarixində konkret bir mətbuat orqanı əsasında yeni tipli mollanəsrəddinçi ədəbi məfkurə parlaq bir yaradıcılıq məktəbi kimi mühitin fövqünə yüksələ bilmişdir.

“Molla Nəsrəddin” ədəbi məktəbi çox geniş anlayış olub, özündə bir neçə yaradıcılıq istiqamətini, çoxsaylı yaradıcı qüvvələri birləşdirən ədəbi məktəbdir. Bir çox yaradıcılıq sahələri “Molla Nəsrəddin” ədəbi məktəbi içərisində, onun hüdudları daxilində xüsusilə inkişaf edərək daha qabarıq şəkildə nəzərə çarpmışdır. Beləliklə, vahid ədəbi məktəb daxilində bir neçə məktəb, necə deyərlər, məktəb içində məktəblər yaranmışdır. “Molla Nəsrəddin” şeir məktəbi, mollanəsrəddinçi yeni nəsr, satirik publisistika və karikatura məktəbləri “Molla Nəsrəddin” ədəbi məktəbinin üzvi tərkib hissələridir. Doğrudur, bu məktəblərdən hər biri, xüsusən mollanəsrəddinçi satirik şeir məktəbi həm də müstəqil ədəbi məktəb təsiri bağışlayır. Hətta “Molla Nəsrəddin” şeir məktəbinin zəminində formalaşmış və xüsusi bir Sabir satira məktəbi də nəzərə çarpmaqdadır. Yaxud “Molla Nəsrəddin” karikatura məktəbi ənənələri əsasında ayrıca Əzim Əzimzadə karikaturaçılıq məktəbinin yaranması da inkarolunmaz faktdır. Bütün bunlar nəinki “Molla Nəsrəddin” ədəbi məktəbinin əhəmiyyətini azaltmır, əksinə, bu möhtəşəm, nəhəng məktəbin geniş sənət imkanlarını nümayiş etdirir.

Qeyd etmək lazımdır ki, “Molla Nəsrəddin” ədəbi məktəbinin bütün qolları özünün təmsilçiləri, yetirmələri, davamçıları baxımından “məhsuldar” görünür. Bununla belə, “Molla Nəsrəddin” şeir məktəbi daha üstün nailiyyətləri ilə nəzərə çarpır. Azərbaycan ədəbiyyatında Mirzə Ələkbər Sabir kimi nəhəng satirik şairin meydana çıxması sözün geniş mənasında, türk-müsəlman dünyası satirasının da ən yüksək ədəbi nəticəsi sayılmalıdır. Dünya ədəbiyyatında satirik şeirin yüksək sənətkarlığına və vüsətinə görə M.Ə.Sabirlə yanaşı dura biləcək şairlər çox deyil. Həqiqətən də müasiri Abbas Səhhətin yazdığı kimi, “Sabir əfəndi... köhnə şeirlərlə yeni şeirlər arasında bir əsrlik qədər uçurum açdı ki, bir daha geri dönüb də o uçurumu atlanmağa kimsədə cürət və cəsarət qalmadı”.

“Molla Nəsrəddin” şeir məktəbi ədəbiyyatımızda Mirzə Ələkbər Sabir, Əli Nəzmi, Məmməd Səid Ordubadi, Əliqulu Qəmküsar, Mirzəli Möcüz Şəbüstəri, Bayraməli Abbaszadə, Əli Razi Şamçızadə, Əliabbas Müznib, Əli Məhzun, Məhəmmədəli Sabit, Mirzə Cabbar Əsgərzadə və başqalarını yetirib ərsəyə gətirmişdir. Otuzdan artıq satirik şeiri olan Cəlil Məmmədquluzadə də ədəbi məktəbin şeir qoluna öz töhfələrini vermişdir.

Bu ədəbi məktəbin nəsr qolunun təmsilçiləri kəmiyyət etibarilə çox deyildir. Bununla belə, təkcə Cəlil Məmmədquluzadənin nəsr əsərləri kəmiyyət etibarilə “Molla Nəsrəddin”in nəsr qolunun müstəqil ədəbi istiqamət səviyyəsinə yüksəlməsi üçün yetərli örnək idi. Nəinki “Molla Nəsrəddin” ədəbi məktəbinin nəsr qoluna, bütövlükdə Azərbaycan ədəbiyyatında tənqidi-realist və satirik nəsr yaradıcılığına Cəlil Məmmədquluzadə ədəbi məktəbi də demək mümkündür. Konkret olaraq realist-satirik nəsr sahəsində, Azərbaycan ədəbiyyatında Cəlil Məmmədquluzadədən uca zirvə yoxdur. Özündən sonrakı ədəbiyyata təsir etmək baxımından Cəlil Məmmədquluzadəni yalnız Mirzə Fətəli Axundzadə ilə müqayisə etmək mümkündür. Mollanəsrəddinçi bədii nəsrimizi Əbdürrəhim bəy Haqverdiyev, Yusif Vəzir Çəmənzəminli, Eynəli bəy Sultanov kimi görkəmli sənətkarlar da uğurla inkişaf etdirmişlər.

Mollanəsrəddinçi satirik publisistika Azərbaycan ədəbi-ictimai fikrində müstəqil bir istiqamət kimi möhkəm yer tutmağa, ədəbiyyat və mətbuat tarixində yol açmağa layiq olan zəngin kamil sənət nümunəsidir. Mollanəsrəddinçi publisistika milli mətbuatımızın tarixində yeni hadisədir. Cəlil Məmmədquluzadənin publisistikası bədii nəsri, yaxud dramaturgiyası qədər qiymətli və əhəmiyyətlidir, hətta daha aktual və müasirdir. Ömər Faiq Nemanzadə mollanəsrəddinçi publisistikanı dəyərli, kamil sənət örnəkləri olan nümunələrlə zənginləşdirmişdir. Məmməd Səid Ordubadinin, Əli Nəzminin, Əliqulu Qəmküsarın şairliklə yanaşı, satirik publisistika sahəsində də mühüm nailiyyətləri var. Məhəmmədəli Sidqi, Qurbanəli Şərifov, Rzaqulu Nəcəfov, Əbülfəttah Ələvi, İskəndərxan Qəffari Sərxpuş, Süleyman Məlikov, Məhəmmədəli Nasir, Nəsrulla Qənbərov və başqalarının da mollanəsrəddinçi publisistikanın inkişafında özlərinəməxsus xidmətləri qeyd olunmalıdır.

Karikaturanı mətbuata gətirmək Cəlil Məmmədquluzadənin və “Molla Nəsrəddin” jurnalının məxsusi xidməti sayılmağa layiqdir. Xüsusi aktuallığa, mühüm əyanilik imkanlarına malik olan karikaturalar mollanəsrəddinçi şeiri, bədii nəsri və publisistikanı tamamlamış və daha da qüvvətləndirmişdir. “Molla Nəsrəddin” jurnalının oxucularının və abunəçilərinin coğrafiyasının genişlənməsində karikaturaların müstəsna rolu var idi. Mübariz jurnalın cəmiyyətdə baş verən ictimai-siyasi hadisələrə, demokratik proseslərə təsir etməsi baxımından da karikaturalar ciddi əhəmiyyətə malik olmuşdur. Mollanəsrəddinçi karikaturanın inkişafına Mirzə Cəlil Məmmədquluzadə xüsusi əhəmiyyət vermiş, geniş meydan açmış, böyük qayğı göstərmişdir. Müxtəlif illərdə “Molla Nəsrəddin”lə əməkdaşlıq etmiş Əzim Əzimzadə, İsmayıl Axundov, Qəzənfər Xalıqov, Yusif Vəzir Çəmənzəminli, Hüseyn Əliyev, Hüseynqulu Zeynalov, Əmir Hacıyev (Azərbaycan), Konstantin Dorş, Qrinyevski (Rusiya), Oskar Şmerlinq, İozef Rotter (Almaniya), Beno (Ukrayna), Seyidəli Behzad (Təbriz), Xəlil Musayev (Dağıstan), Giladze (Gürcüstan) və başqaları kimi karikatura ustaları “Molla Nəsrəddin” jurnalı vasitəsilə yetişib parlamış, ad-san qazanmışlar.

Göründüyü kimi, “Molla Nəsrəddin” ədəbi məktəbi bir neçə istiqamətdə inkişaf etmiş, ədəbiyyatımıza, milli mədəniyyətimizə, mətbuatımıza və ictimai fikrimizə böyük sənət uğurları qazandırmışdır.

“Molla Nəsrəddin” jurnalı və eyni adlı ədəbi məktəb mollanəsrəddinçilik deyilən məxsusi bir təlimi meydana çıxarmışdır. Bu ədəbi məktəbin ideya əsasını mollanəsrəddinçilik təlimi təşkil edir. Mollanəsrəddinçilik təlimi, ilk növbədə, “Molla Nəsrəddin” ədəbi məktəbinin, tənqidi realizmin nizamnaməsi, əsasnaməsidir, “ictimai-ədəbi fikir cərəyanı deməkdir” (Ə.Mirəhmədov).

Milli müstəqillik və azadlıq uğrunda mübarizə, Azərbaycançılıq məfkurəsinin formalaşdırılması mollanəsrəddinçilik təliminin əsasında dayanır. Kiçik adamın timsalında xalq anlayışını ədəbiyyata və mətbuata gətirmək və müdafiə etmək mollanəsrəddinçiliyin təməl şərtlərindəndir. “Açıq ana dilində” yazmaq, “açıq yazmağı da bacarmaq” mollanəsrəddinçilik təliminin əsas üslubi istiqamətini müəyyən edir. Mollanəsrəddinçilik – ictimai satira vasitəsilə cəmiyyəti dəyişmək, yeniləşdirmək, xalqı irəli aparmaq, milli-mənəvi özünüdərk proseslərini dərinləşdirmək deməkdir.

Satiranın bütün gücü və imkanları mollanəsrəddinçilik təlimində öz əksini tapır. “Molla Nəsrəddin” jurnalının dili, üslubu, janrları, tipajları, karikaturaçılıq mollanəsrəddinçi poetikanın əsasını təşkil edir. Mollanəsrəddinçiliyi satirik publisistikanın siyasi kəsəri, yüksək vətəndaşlıq ruhu, forma müxtəlifliyi, zəngin sənətkarlıq imkanları kimi də başa düşmək olar. Mollanəsrəddinçilik – ədəbiyyatda və ictimai fikirdə demokratik proseslərin genişləndirilməsi və müdafiə olunması deməkdir.

“Molla Nəsrəddin” jurnalının çoxillik fəaliyyəti artıq tarixin faktına çevrilmişdir. Mollanəsrəddinçilik ideyaları və təlimi isə davam edir. Nə qədər ki müstəqil Azərbaycan dövləti və məmləkəti var, nə qədər ki milli ədəbiyyatımız və mətbuatımız fəaliyyət göstərir, “Molla Nəsrəddin” ədəbi məktəbinin ənənələri, mollanəsrəddinçilik təlimi yaşamaqda davam edəcək, inkişafa, tərəqqiyə özünün böyük və təmənnasız köməyini göstərəcəkdir.

*Ardı 4-cü səhifədə*

Cəlil Məmmədquluzadənin ölməz və parlaq sənəti "Molla Nəsrəddin" jurnalının həmişəyaşar ənənələri, mübariz mollanəsrəddinçilik təlimi müstəqil Azərbaycanın tərəqqisinə etibarlı şəkildə dəstək verir, sabaha gedən yollarına işıq salır.

Müasir Azərbaycan ədəbiyyatında tənqidi-realist meyillər, satira, vətəndaşlıq cəsarəti, dərin milli düşüncə, Azərbaycançılıq məfkurəsi yaşadıqca "Molla Nəsrəddin" ədəbi məktəbinin ənənələri də, mollanəsrəddinçilik təlimi də yaşayacaqdır. Azərbaycan ədəbiyyatının, mətbuatının, ictimai fikrinin və karikatura sənətinin son yüz ildəki bütün əsas inkişaf istiqamətlərinin hamısında Mirzə Cəlil Məmmədquluzadənin zəngin irsindən və "Molla Nəsrəddin" ənənələrindən "bir duz" var.

Azərbaycan dövləti Cəlil Məmmədquluzadənin, mollanəsrəddinçi şair və yazıçıların, "Molla Nəsrəddin" jurnalının fəaliyyətinə yüksək qiymət vermişdir. "Molla Nəsrəddin" ədəbi məktəbinin və jurnalın dövlət səviyyəsində yubileyləri keçirilmişdir. "Molla Nəsrəddin" ədəbi məktəbinin yaradıcılarının çap edilmiş əsərlərindən böyük bir kitabxana yaratmaq mümkündür. "Molla Nəsrəddin" jurnalına və mollanəsrəddinçilərə həsr edilmiş elmi əsərlər əsasında Azərbaycan humanitar və ictimai elmləri sahəsində mollanəsrəddinşünaslıq elmi formalaşmışdır. "Molla Nəsrəddin" jurnalının bütün sayları latın əlifbası ilə çap olunub kitabxanalara çatdırılmışdır. Görkəmli dövlət xadimi, ümummilli liderimiz Heydər Əliyevin aşağıdakı kəlamları, bütövlükdə, mollanəsrəddinçilik təliminə verilmiş yüksək qiymətdir: *"Cəlil Məmmədquluzadə öz yaradıcılığı ilə, böyük mətbuatçılıq fəaliyyəti ilə Azərbaycan xalqının milli oyanışında, milli dirçəlişində əvəzsiz rol oynamışdır. Xalqımızın milli şüurunun formalaşmasında məhz "Molla Nəsrəddin" jurnalının və Mirzə Cəlilin fəaliyyətinin rolu misilsizdir".*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamları ilə "Molla Nəsrəddin" jurnalının 100, Cəlil Məmmədquluzadənin 130 və 140 illik yubileyləri geniş miqyasda ədəbiyyatın və mətbuatın bayramı səviyyəsində qeyd edilmişdir. Bu, müstəqil Azərbaycan dövlətində klassik ədəbi irsə müasir səviyyədə verilən ən yüksək qiymətin əməli ifadəsidir.

Mollanəsrəddinçilik daimi inkişafda olan və ümummilli ideallara xidmət edən əbədiyaşar ədəbiyyat təlimidir.

**İsa HƏBİBBƏYLİ**
**Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, Milli Məclisin Elm və təhsil komitəsinin sədri, akademik**
**"Azərbaycan" qəzeti, 7 aprel 2016-cı il**

***Musiqi mədəniyyətinin inkişafının tələb olunan səviyyədə təmin edilməsində istedadlı kadrların yetişdirilməsi ən vacib məsələlərdən biridir. Musiqi sahəsində ilkin addımlar sonradan professional sənətin bünövrəsinə çevrilir. Bu cəhətdən muxtar respublikada uşaqlara ilkin musiqi təhsili verən uşaq musiqi məktəblərinin üzərinə mühüm vəzifələr düşür. Çünki uşağın sonradan musiqini özünə peşə seçməsi və professional musiqiçi kimi yetişməsi məhz ilk musiqi müəllimindən, geniş mənada isə musiqi məktəbində təhsilin səviyyəsindən, tədrisin ixtisas və nəzəri fənlər baxımından kompleks şəkildə öyrədilməsindən çox asılıdır. Sevindirici haldır ki, bu gün muxtar respublikamızda təkcə Naxçıvan şəhərində deyil, rayon mərkəzlərində və kəndlərdə də uşaq musiqi məktəbləri üçün yeni binalar tikilir və ya əsaslı təmir olunur, yüksək maddi-texniki baza yaradılır. Məqsəd isə ondan ibarətdir ki, yuxarıda deyildiyi kimi, muxtar respublikada musiqi mədəniyyəti inkişaf etsin, istedadlı gənclər aşkara çıxarılsın, müvafiq sahə üzrə kadr potensialı formalaşsın.***

## Muxtar respublikamızda uşaq musiqi məktəblərinin fəaliyyəti üçün hərtərəfli şərait yaradılıb

### *Təəssüf ki, həmin məktəblərin bəziləri bu şəraitdən düzgün istifadə edə bilmir*

Bəs bu məktəblərin kollektivləri necə, yaradılan şəraitdən düzgün istifadə edə bilirmi? Onlar qarşılarına qoyulan vəzifələrin öhdəsindən necə gəlirlər? Təəssüflər olsun ki, bəzi uşaq musiqi müəssisələrində bu məsuliyyətli işin öhdəsindən layiqincə gələ bilmirlər. Elə bu səbəbdən də gələcəyin ustad sənətkarlarının yetişdirilməsi işində vacib və ilkin mərhələ olan bəzi uşaq musiqi məktəblərinin fəaliyyətləri çox ciddi nöqsanlarla müşahidə edilir. Elə götürək ***Babək rayonunun Şıxmahmud Kənd Uşaq Musiqi Məktəbini***. Müşahidələrimiz zamanı gördük ki, burada tədris çox aşağı səviyyədədir. Məktəbdə olduğumuz zaman cədvəl üzrə 30-a yaxın dərs olduğu halda, iki nəfər müəllimdən başqa heç bir müəllim dərs keçmirdi. Bu məktəb üçün 2008-ci ilin noyabr ayında yeni bina tikilib istifadəyə verilib, burada müasir şərait yaradılıb. Təəssüf ki, Şıxmahmud Kənd Uşaq Musiqi Məktəbinin müəllim kollektivi bu şəraitdən düzgün istifadə etmək barədə düşünmək belə, istəmir. Məktəb kollektivinə xatırladırıq ki, açılış mərasimində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri bu məktəbin müəllimləri qarşısında ciddi vəzifələr qoyub: ***"Azərbaycan mədəniyyətinin, musiqisinin inkişaf etdirilməsində, xalq mahnılarımızın, folklorumuzun yaşadılmasında musiqi məktəblərinin xüsusi əhəmiyyəti vardır. Ona görə də yeni məktəblər açılır, musiqi məktəbləri üçün yaxşı şəraiti olan binalar tikilir. Bu sahədə çalışan müəllimlərimizin dərs yükü imkan verir ki, onlar musiqi tədrisi ilə lazımi səviyyədə məşğul ola bilsinlər. Uşaqlar öyrəndikləri musiqi alətlərini yaxşı ifa etməli, müəllimlərimiz isə onlara yaxşı musiqi təhsili verməlidirlər".*** Ancaq təəssüf ki...

Naxçıvan şəhərinin ***Əliabad qəsəbəsində*** fəaliyyət göstərən ***uşaq musiqi məktəbində*** də müəllimləri tapa bilmədik. Cədvəl üzrə dərsləri olan Tərlalə Cəfərovanın, Sahibə Məmmədovanın, Afət Şahməmmədovanın işlərinə bu cür münasibəti düşündürücüdür.

***Şahbuz Rayon Kolanı Kənd Uşaq Musiqi Məktəbində*** cədvəl üzrə dərslərdə iştirak etmək istədiyimizi bildirəndə cədvəlin olmadığını dedilər. Bəs dərslər nəyə əsasən keçirilir? sualımız cavabsız qaldı. Nəsimi Təhməzov və Şirin Şirinzadənin dərsləri olduğu halda, məktəb kollektivi səfərbər olub bu iki müəllimi tapa bilmədi. Fortepiano müəllimi Vüsal Ağaliyev isə, deyəsən, boş sinfə dərs keçirdi. Cədvəl üzrə dərsi olduğu halda, öz işinə biganə yanaşan direktor Akif Məmmədovun rəhbərlik etdiyi məktəbdə dərslərin boş keçməsi bizi təəccübləndirmədi. Çünki əmək intizamına, vəzifə borcuna ilk olaraq direktor əməl etməli, müəllimlərə nümunə olmalıdır. Direktordan uşaqların nə üçün dərsə gəlmədiklərini soruşduqda isə sualımız cavabsız qaldı. Əgər məktəb direktoru öz dərsinə belə yanaşırsa, məktəb müəllimlərindən necə nizam-intizam tələb edə bilər?

Düşündük ki, ***Şahbuz Şəhər Uşaq Musiqi Məktəbində*** vəziyyət yaxşı olar. Çünki ən azından bura rayon mərkəzidir. Amma təəssüf ki, burada vəziyyət daha acınacaqlı idi. Həmin gün 25-ə yaxın müəllimin dərsi olan məktəbdə bir neçə dərsdə iştirak etmək istədik. Nərminə Baxşəliyeva, Həsən Səfərov, Aytən Həsənli, Nahidə Mehdiyevanın dərsləri olduğu halda, dərslərin keçildiyini görmədik. İstər-istəməz düşünürsən: müəllim elə bir simadır ki, onun yetişdirdiyi şagird gələcəkdə cəmiyyətin bir üzvü olacaq. Gələcəyimizə belə münasibət göstərən müəllimə müəllim demək olarmı? Bəs həmin məktəbə rəhbərlik edən direktor necə? O, bu vəzifəyə layiqdirmi? Bəs onda Şahbuz Rayon Mədəniyyət və Turizm Şöbəsinin rəhbərliyi hara baxır? Onun hər iki məktəbdə müşahidə etdiyimiz nöqsanlardan xəbəri varmı? Xəbəri varsa, niyə indiyə kimi heç bir tədbir görülməyib? Xəbəri yoxdursa...

***Kəngərli rayonunun Çalxanqala Kənd Uşaq Musiqi Məktəbi*** də nöqsanlardan xali deyil. Bəxtiyar Hümbətovun, İntiqam Rzayevin dərsində heç bir şagird görmədik. Müəllimlərdən İntiqam Rzayevin dərsində iki şagird görəndə sevindik. Aydın oldu ki, bu iki şagird başqa qrupun uşaqlarıdır. Məktəbdə "yoxlama var" həyəcan təbili çalındığına görə məktəb kollektivi kişmiş oyunu oynamaq niyyətinə düşüb.

Məgər bu müəllimlər dövlətdən əməkhaqqı almırlarmı? Alırlarsa, nə üçün öz işlərinə bu qədər soyuq, biganə və laqeyd münasibət bəsləyirlər? Bu məktəblərdə çalışan müəllimlərin öz övladlarına bu cür münasibət göstərilərsə, onlar buna necə reaksiya verərlər?

Yaradılan şəraitdən düzgün istifadə edən məktəblərimiz də var. Onlardan Qıvraq Qəsəbə Uşaq Musiqi Məktəbinin, Cəhri Kənd Uşaq Musiqi Məktəbinin, Naxçıvan şəhər 3 nömrəli Uşaq Musiqi Məktəbinin adlarını çəkə bilərik. Ordubad Şəhər Uşaq Musiqi Məktəbinin adını isə xüsusi qeyd etməliyik. Elə biz məktəbdə olarkən bir qaynarlıq hökm sürürdü. Ümumiyyətlə, məktəbdə yaradıcılıq və öyrətmək ab-havasını hiss etmək çətin deyildi. Məhz ona görədir ki, bu məktəb keçirilən müsabiqələrdə uğurlu nəticələr əldə edir.

***Əziz oxucular!*** Müşahidə apardığımız uşaq musiqi məktəblərinin hamısı maddi-texniki bazaları gücləndirilmiş təhsil ocaqlarıdır. Ali Məclisin Sədri uşaq musiqi məktəblərinin birinin açılışında demişdir ki, musiqi məktəblərinin yaradılmasında əsas məqsəd uşaqların asudə vaxtının səmərəli təşkilindən, musiqi duyumu və qabiliyyəti olan uşaqların üzə çıxarılmasından, milli musiqimizin gələcək nəsillərə çatdırılmasından ibarətdir. Bu gün musiqi məktəblərinin müəllim və şagirdləri yaradılan şəraitdən düzgün istifadə etməli, ölkəmizin musiqi mədəniyyətinin inkişafına öz töhfələrini verməlidirlər. Musiqi məktəblərində milli musiqimizin şagirdlərə hərtərəfli öyrədilməsi imkan verəcəkdir ki, onlar gələcəkdə musiqi mədəniyyətimizin, milli dəyərlərimizin daşıyıcılarına çevrilsinlər. Ona görə də musiqi məktəblərində təhsil alan şagirdlərə gələcəyin qurucusu, milli dəyərlərimizin, mədəniyyətimizin daşıyıcısı kimi baxılmalıdır. Hər bir şagirdlə fərdi qaydada məşğul olunmalı, istedadlı olan gənclər üzə çıxarılmalıdır.

Ancaq görünür ki, qarşıya qoyulan bu ciddi vəzifələri bəzi musiqi məktəblərinin kollektivləri dərk etmirlər. Ona görə də bu məktəblərdə tədrisin keyfiyyəti çox aşağı səviyyədədir. Bu da onunla bağlıdır ki, həmin məktəblərdə əmək intizamına, ümumiyyətlə, fikir verilmir. Düzdür, Mədəniyyət və Turizm Nazirliyi bununla bağlı müxtəlif tədbirlər həyata keçirir. Fevral ayında nazirlik tərəfindən musiqi məktəblərində tədris işinin təşkili ilə bağlı zona müşavirələri keçirilib. Məktəblərdəki şagird kontingentinin komplektləşdirilməsinin düzgün aparılmadığı, bəzi məktəblərdə ixtisas dərslərinin zəif keçildiyi, qrup dərslərində vəziyyətin qənaətbəxş olmadığı dəfələrlə qeyd edilib. Amma keçirilən tədbirlər heç bir nəticə verməyib.

***P.S.*** *Bu gün muxtar respublikamızda fəaliyyət göstərən böyük musiqi kollektivləri istedadlı və ixtisaslı kadrların yolunu gözləyirlər. Əgər bu kadrlar belə yetişdirilirsə, onların gözləməsi əbəsdir. Unutmaq olmaz ki, hər yeni nəsil möhkəm təməl üzərində qurulan sənət xəzinəsinə əlavələr edir, yeniliklər gətirir. Bu təbii və gözlənilən prosesin axarında sarsılmaz qüvvə olan gənclik durur. Məhz buna görə də istedadlı uşaqlara keyfiyyətli ilkin musiqi təhsili verilərsə, onlar gələcəkdə belə kollektivlərdə öz sözlərini deyəcək, muxtar respublikada musiqi mədəniyyətinin inkişafına töhfələrini verəcəklər.*

Ancaq uşaq musiqi məktəbləri öz fəaliyyətlərini belə davam etdirməsələr…

**Sara ƏZİMOVA**

## *"Kitab bilik mənbəyidir"* adlı müsabiqəyə yekun vurulub

***Naxçıvan Muxtar Respublikasının ümumtəhsil, peşə və orta ixtisas məktəblərində təhsil alan şagird, tələbə və müdavimlər arasında keçirilən "Kitab bilik mənbəyidir" adlı müsabiqəyə yekun vurulub.***



Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi, Yazıçılar Birliyi və "Şərq qapısı" qəzeti redaksiyasının birgə təşkil etdiyi müsabiqədə daha çox bədii ədəbiyyat oxumuş, hazırcavab, geniş dünyagörüşə malik şagird, müdavim və tələbələr iştirak ediblər. Müsabiqənin birinci mərhələsi mart ayında şəhər və rayon təhsil şöbələri tərəfindən keçirilib.

Müsabiqə ümumtəhsil məktəblərinin I-IV, V-VIII, IX-XI sinif şagirdləri, digər təhsil müəssisələrinin isə müdavim və tələbələri arasında 6-10, 10-15 və 15 yaşdan yuxarı qruplar üzrə fərdi qaydada keçirilib. Birinci mərhələdə qalib çıxan ümumtəhsil məktəbi hər yaş qrupu üzrə 2 nəfər olmaqla, 6 şagird ilə, digər təhsil müəssisələri isə 3 nəfər ilə təmsil olunublar.

Məlumat üçün bildirək ki, sorğu anketinə daxil edilmiş hər sual 5 balla qiymətləndirilib. Sualların cavablandırılmasına 60 dəqiqə vaxt verilib. Müsabiqə iştirakçısı oxumuş olduğu daha çox kitab üçün sualları düzgün cavablandıranda yüksək bal qazanıb.

Aprelin 8-də Təhsil Nazirliyində qaliblərin mükafatlandırılması mərasimi keçirilib. Təhsil naziri Məmməd Qəribov qalibləri təbrik edərək bu gün muxtar respublikamızın ümumtəhsil məktəblərində müasir maddi-texniki bazaya malik olan kitabxanaların fəaliyyət göstərdiyini bildirib. Qeyd olunub ki, kitabxanaların hamısı bədii ədəbiyyat və pulsuz dərsliklərlə təmin edilib. Kitabxanalara 2005-ci ildən indiyədək 2 milyon 152 min 243 nüsxə dərslik verilib ki, onların da 132 min 761 nüsxəsi 2015-ci ilin avqust ayında gətirilib. Bundan başqa, məktəb kitabxanalarına 627 min 643 nüsxə latın qrafikası ilə çap olunmuş bədii ədəbiyyat, jurnal və məcmuə verilib. Vurğulanıb ki, bu gün hər bir məktəb kitabxanasından səmərəli istifadə edilməli, şagirdlərin təlim-tərbiyəsində bədii ədəbiyyatlardan istifadə, mütaliə mədəniyyətinin inkişaf etdirilməsi diqqətdə saxlanılmalıdır.

"Şərq qapısı" qəzetinin baş redaktoru Tural Səfərov, Yazıçılar Birliyinin sədri Asim Əliyev çıxışlarında bildiriblər ki, "Kitab bilik mənbəyidir" kəlamı illərdən süzülüb gəlsə də, aktuallığını itirmir, əksinə, həyatımızın, təhsilimizin şüarına çevrilir. İnsan oxuduğu kitablarla kamilləşir, savadlanır, ucalır. Buna görə də biz biliklərimizə görə kitablara borcluyuq. Bir müddət bundan əvvəl kitaba həvəs azalsa da, son zamanlarda problem aradan qalxmaq üzrədir. Xüsusilə bu, məktəb kitabxanalarında oxucuların sayının artmasında daha aydın hiss olunur. Şagirdlərimiz daim kitabxana ilə yaxından əlaqə saxlamalı, burada olan bədii ədəbiyyat, metodiki vəsait və gündəlik mətbuatla müntəzəm maraqlanmalıdırlar. Bildirilib ki, müsabiqənin qalibləri haqqında "Şərq qapısı" qəzetində yazıların dərc olunması nəzərdə tutulub.

Sonda hər yaş qrupu üzrə 1-ci, 2-ci, 3-cü və həvəsləndirici yerlərə layiq görülənlərə diplom və qiymətli hədiyyələr verilib.

**Xəbərlər şöbəsi**


ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Əli Cabbarov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 273